**Respublika.-**2024.-26 iyul.-№156.-S.5.

# Azərbaycanda effektiv qərarlar veriləcək

**Bayram Salmanov**

**Azərbaycan indiyədək bir çox mühüm əhəmiyyət kəsb edən beynəlxalq konfranslara ev sahibliyi edib. Belə mühüm tədbirlərdən biri də COP29 -BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasıdır.**

Qeyd edək ki, iqlim dəyişmələri 1800-cü ildən özünü göstərməyə başlayıb. Məhz həmin dövrdən etibarən bu barədə müəyyən məlumatlar verilib. Bu proses, ümumiyyətlə, bir neçə onilliklər və ya daha çox müddət ərzində orta hava şəraitinin əhəmiyyətli dəyişməsi - məsələn, ətraf mühitin daha isti, nəm və ya daha quru olması kimi müəyyən edilir. Bu, iqlim dəyişmələrini təbii hava dəyişkənliyindən fərqləndirən uzunmüddətli tendensiyadır.

Bütün COP konfranslarında iki əhəmiyyətli istiqamət var: danışıqlar və fəaliyyət gündəliyi. COP, əslində, BMT-nin tədbiridir, Azərbaycan, sadəcə, bu prosesə bu il üçün ev sahibliyi və liderlik edir. Danışıqlar istiqamətindəki maddələri tərəf ölkələr BMT İqlim dəyişmələri Katibliyinin təşkilatçılığı çərçivəsində müəyyənləşdirir. Hər il keçirilən qlobal iqlim danışıqlarını İkinci Dünya müharibəsindən sonra dünyada qlobal təhlükəsizlik arxitekturasının qurulması prosesi ilə müqayisə etmək olar. Miqyas olaraq COP dünyada gerçəkləşən ən böyük tədbir sayılır. Ümumi olaraq götürülərsə, dünya siyasətinə və iqtisadiyyatına daha çox təsir edən ikinci belə tədbir yoxdur. Burada verilən qərarlar geosiyasi və geoiqtisadi xəritələrin dəyişmələrinə səbəb olacaq qədər ciddi nəticələr yaradır.

Azərbaycan neft və qaz sahəsində olduğu kimi, bərpaolunan enerji nöqteyi-nəzərindən də zəngin ölkədir. Ən böyük neft və qaz yatağının yerləşdiyi Xəzər dənizi külək enerji potensialı sahəsində dünyanın ən zəngin bölgəsidir. İqlim müzakirələrində ən çox istifadə olunan ifadələrdən biri miqyasdır. Çünki hər yerdə Günəş və külək enerjisi var, ancaq keyfiyyətli bərpaolunan enerjinin böyük miqyasda tapıldığı sahələr azdır və Xəzər dənizinin Azərbaycan sektoru bunlardan biridir.

Azərbaycanın COP29-a ev sahibliyini 2024-cü ilin ən mühüm hadisəsi və ölkənin yaşıl iqtisadiyyata keçid strategiyasının məntiqi davamı kimi qiymətləndirmək olar. Prezident İlham Əliyevin Sərəncamı ilə 2024-cü ilin ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi bu missiyaya verilən dəyərin təsdiqidir. Bu təşəbbüs sadəcə rəmzi məna daşımır, həmçinin Azərbaycanın müsbət ekoloji dəyişikliklər yaratmaq məqsədi daşıyan ölkələr üçün model olmaq istəyidir, eyni zamanda gələcək nəsillər üçün daha yaşıl və sağlam gələcəyin qurulması istiqamətində dəyərli öhdəliyini, strateji məqsədlərini və fəal tədbirlərini əks etdirən addımdır. Görülən işlərə və qarşıya qoyulan məqsədlərə nəzər saldıqda sadəcə vəd verməklə kifayətlənməyən, strateji ekoloji qərarlarla konkret nəticələr əldə edən bir ölkə görürük. Bu ölkə yaşıl enerji iqtisadiyyatına verdiyi önəmi əməli fəaliyyətlərlə də sübut edir. Belə ki, Azərbaycan 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının miqdarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını hədəfləyib.

Real mənzərə budur ki, hər kəs bu qlobal problemdən danışsa da, çox az ölkə bu istiqamətdə iş görür. Bir sıra ölkələr, ümumiyyətlə, bu istiqamətdə üzərlərinə götürdükləri öhdəliklərə əməl etmir. Lakin Azərbaycan həmişə olduğu kimi, bu dəfə də öz üzərinə düşən missiyanı yüksək səviyyədə yerinə yetirir, iqlim dəyişmələri ilə mübarizədə yeni Azərbaycan modelini yaradır. Təklif olunan modelin Ermənistanın 30 illik işğalından azad edilmiş ərazilərdə uğurlu tətbiqi mümkündür. Azərbaycan modelinin məhz işğaldan azad olunmuş ərazilərdə sınağı, iqlim dəyişikliyi ilə mübarizədə mühüm mərhələ ola bilər.

COP29-un Azərbaycanda keçirilməsi həm ölkəmiz, həm də bütün dünya üçün böyük əhəmiyyət kəsb edir. Hər şeydən əvvəl bu mötəbər toplantı ölkəmizin nüfuzunu zirvələrə qaldıracaq. Eyni zamanda tədbir dünyanın diqqətini Azərbaycana yönəldəcək və onun davamlı inkişaf prinsiplərinə bağlılığını nümayiş etdirəcək. Bu, həm də ölkə üçün iqlim dəyişikliyi ilə mübarizəyə sadiqliyini nümayiş etdirmək və "yaşıl" texnologiyalara investisiya cəlb etmək üçün fürsət yaradacaq. Bir sözlə, COP29 "yaşıl" texnologiyaların və investisiyaların inkişafı üçün katalizator olacaq, ölkəmizdə yeni biznes imkanlarının və iş yerlərinin yaradılmasına yol açacaq.

Ən əsası isə COP29 iqlim dəyişikliyi problemləri haqqında ictimaiyyətin məlumatlılığının artırılmasına kömək göstərəcək və vətəndaşlarımızı ətraf mühitin mühafizəsində iştiraka təşviq edəcək. Bununla yanaşı, bu mötəbər toplantı iqlim dəyişikliyi məsələləri üzrə dünya ölkələri arasında dialoq üçün platforma olacaq, qlobal problemin həlli yollarını tapmağa kömək edəcək. Azərbaycanın ev sahibliyi etdiyi tədbir "yaşıl" iqtisadiyyatda ən yaxşı təcrübə və texnologiyaların nümayişi üçün platforma olacaq.

Bir çoxları COP29-u "İqlim maliyyəsi COP"u adlandırır. Dünya ölkələri kollektiv və ciddi tədbirlər görməsə, iqlim böhranı nəzarətdən çıxa bilər. İqlim dəyişmələrinin fəsadlarına ən çox məruz qalan ölkələrin əksəriyyəti Afrika qitəsindədir. Kiçik ada dövlətləri də bu kateqoriyadadır. Emissiyalardakı payları 1 faiz olsa da, bu ölkələrin yüksələn okean sularının altında qalıb tamamən yox olma ehtimalı kifayət qədər böyükdür. Məhz bu il keçiriləcək COP29 konfransında bu məsələyə xüsusi diqqət ayrılacaq.

Ölkəmizdə keçiriləcək COP29 zamanı bütün tərəflərin özlərini rahat hiss edəcəkləri bir mühit formalaşdırılacaq. Artıq dövlətimizin Qoşulmama Hərəkatında körpü rolunu oynamaqda təcrübəsi vardır. Azərbaycan dörd il sədrlik etdiyi Hərəkatda 120 üzv ölkə ilə birlikdə böyük tərəqqiyə nail olub. Bütün bunların həyata keçirilməsində, sözsüz ki, ölkəmizin Avropa İttifaqına üzv olan dövlətlərlə fəal əməkdaşlığı da mühüm əhəmiyyət kəsb edir. Bu ölkələrin doqquzu ilə strateji tərəfdaşlıq haqqında Bəyannamənin imzalanması isə bu əlaqələri daha da etibarlı edir.

Dünya əhəmiyyətli bu tədbir ərəfəsində Azərbaycan tərəfindən COP üçün yenilik olan bir təşəbbüs də irəli sürülüb. Bu təşəbbüs əməkdaşlıq edərək üç ölkə - BƏƏ, Azərbaycan və Braziliyanın təcrübəsindən istifadə etməkdir. Üçlüyün yaradılmasında qeyd olunan ölkələrin müxtəlif regional, iqtisadi, siyasi məsələlərdə fəal iştirakı nəzərə alınıb.

Qeyd edək ki, Azərbaycan Prezident Administrasiyasının rəhbəri, COP29 üzrə Təşkilat Komitəsinin sədri Samir Nuriyev iyulun 24-də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının icraçı katibi Saymon Stil ilə görüşüb və COP29 sədrliyinin bütün dövlətlərin və digər maraqlı tərəflərin mövqeyini öyrəndiyini, mühüm beynəlxalq toplantılarda iştirak etdiyini, fəal şəkildə çalışdığını diqqətə çatdırıb, ölkəmizin yeni iqlim maliyyəsinin məbləği üzrə inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında konsensusa nail olunması üçün səylərini əsirgəməyəcəyini bildirib.

Saymon Stil Azərbaycan tərəfindən COP29-un uğurla keçirilməsi istiqamətində aparılan işlərdən, kiçik ada ölkələrinə dəstək verilməsinin dövlətimizin gündəliyində yer almasından məmnunluğunu ifadə edib, BMT-nin COP29-un təşkili ilə bağlı Azərbaycana hər cür kömək göstərməyə hazır olduğunu vurğulayıb.

Prezident İham Əliyevin qeyd etdiyi kimi, qlobal problemin mövcudluğu şəraitində hər bir ölkə bir-birini günahlandırmağa son qoymalı, qarşılıqlı səy, həmrəylik nümayiş etdirməlidir. Dünyamızda olan iqlim fəlakətlərinə görə ölkələr ittiham xarakterli çıxışlardan, fikirlərdən uzaq olmalıdır.

COP29 prosesinə liderlik edən ölkə olaraq Azərbaycan mürəkkəb, xoşagəlməz nəticəyə doğru irəliləyən mühitdə ədalətli və effektiv qərarların verilməsini təmin edəcək, respublikamızda keçirilən bütün beynəlxalq səviyyəli tədbirlər kimi, bu konfrans da yaddaqalan olacaq və bu sahədə olan məsələlərin həllinə öz töhfəsini verəcək.